**Bakı İnzibati məhkəməsinə**
*Ünvan:* Bakı şəhəri, Nəsimi rayonu, N. Vəzirov küçəsi 56

**İddiaçı:** Aydın Arif oğlu Əlizadə
*Ünvan*: Bakı şəhəri, AZ-1001, Y. İbrahimli küçəsi 7, mən. 7. Tel.: 0513549633
(ŞV: AZE 15020739; FİN: 19AA301)

**Cavabdeh:** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası
*Ünvan:* Bakı şəhəri, AZ 1001, İstiqlaliyyət küçəsi 8; Tel.: 0124923727

# İDDİA ƏRİZƏSİ

Mən, Aydın Arif oğlu Əlizadə Azərbaycan Milli Elmlər Akademiyası (bundan sonra AMEA) Fəlsəfə və Sosiologiya institutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru, dosentəm.

AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurasının 07.02.2023 il tarixli 1№-li qərarı ilə mənim sosiologiya elm sahəsi üzrə professor elmi adı almaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra AAK) qarşısında **Vəsatət** qaldırılmış (Qoşma 1) və 13.03.2023-cü il tarixində qanunla tələb olunan sənədlərim bu quruma təqdim edilmişdir.

Lakin 27.03.2023 il tarixində sənədlər instituta geri qaytarılmışdır. Buna görə mənim tərəfimdən mart və aprel aylarında AAK-a əvvəlcə izahat və xahiş, sonra isə etiraz məktublarım ünvanlanmışdır. Bu etirazlara cavab verən AAK Aparat rəhbərinin 27.04.2023-cü il tarixli №3-50/2-Ə-422-4/2023 saylı məktubundan məlum olmuşdur ki, Vəsatətə imtinanın və sənədlərimin geri qaytarılmasının səbəbi mənim sosiologiya deyil, fəlsəfə elmləri doktoru olmağımdır (Qoşma 2). Çünki, onun yazdığına görə, ***"Elmi adlar verilməsi qaydası haqqında Əsasnamənin"*** (bundan sonra ***Əsasnamə***) 1.3. bəndinə görə *"professor elmi adı elmi dərəcənin verildiyi elm sahəsində verilir"*.

Lakin AAK-ın bu qərarını doğru və qanunvericiliyə uyğun saymaq olmaz. Çünki, həmin sözlər 11 iyun 2019 il tarixli ***Əsasnaməyə*** 3 il 5 aydan sonra 26.11.2022-cü il tarixində ***əlavə edilmişdir*** (Qoşma 3). Halbuki AAK-a təqdim etdiyim elmi işlərim və fəaliyyətim bundan öncəki illəri əhatə edir.

**Professorluğa iddia prosesinin başlanması tarixi:**

Həmin Əsasnamənin 3.1.2., 3.1.3., 3.1.4. və 3.1.5.1. bəndlərinə görə (Qoşma 4) professor elmi adının alınması üçün iddia etmə prosesi AAK-ın imtinanı əsaslandırmağa cəhd etdiyi 26.11.2022-cü il tarixli düzəlişdən deyil, ***iddiaçının elmlər doktoru elmi dərəcəsi alması tarixindən başlanır***. Mən isə elmlər doktoru elmi dərəcəni 2009-cu ildə almışam (Qoşma 5) və buna görə də professorluğa iddia etmə prosesim bu tarixdən başlanır və 2010-2022-ci illəri əhatə edir. Beləliklə, 2022-ci ilin sonunda ***Əsasnaməyə*** edilən düzəliş mənim işimə aid edilə bilməz, çünki qanunun geriyə qüvvəsi yoxdur.

**“Sosiologiya” şöbəsinin əməkdaşı olmağım:**

Eyni zamanda mən, 2018-ci ildən başlayaraq institutumuzun **“Sosiologiya” şöbəsinin baş elmi işçisiyəm** (Qoşma 6). Bu da o deməkdir ki, sosiologiya elm sahəsində elmi ad almağa iddiam təsadüfi deyil, birbaşa vəzifəmlə əlaqəlidir, məhz bu elm üzrə dövlətin elmi planlarını yerinə yetirmişəm. Sosiologiya elm sahəsində fəaliyyət göstərərək mən, 2016-cı il 14 iyun tarixli ***Azərbaycan Respublikası Elm Qanununun*** 31.1.15. bəndində təsbit olunmuş “işlədiyim *elmi təşkilatın tədqiqat istiqaməti çərçivəsində elmi maraqlarıma uyğun olaraq sərbəst tədqiqat istiqaməti seçmək”* hüququmdan istifadə etmişəm (Qoşma 7). Elmi təşkilatımın tədqiqat istiqamətlərindən biri isə sosiologiyadır. Bu illər ərzində qanunlarda fəlsəfə elmləri doktorunun sosiologiya elm sahəsi üzrə professor elmi adını almaq üçün heç bir əngəl olmamışdı və buna görə də mən buna iddia etmişəm. Bunu edərək bilə bilməzdim ki, 2022-ci ilin sonunda Əsasnaməyə düzəliş ediləcək. Buna görə həmin düzəliş mənim iddiama aid edilməməlidir, çünki geriyə qüvvəsi ola bilməz.

**Monoqrafiyanın dərc edilməsi tələbi:**

**Əsasnamənin** 3.1.3. və 3.1.5.3. bəndlərinə görə, professor adına iddia etmək üçün əsas şərtlərdən biri iddiaçı tərəfindən elmi müəssisənin qərarı ilə **monoqrafiyanın**

**dərc edilməsidir**. Bu qanunu icra edərək mən, institutumuzun Elmi şurasının qərarı ilə 2020-ci ildə sosioloji mövzuda monoqrafiya dərc etmişəm (Qoşma 8) və bunu edərkən bilə bilməzdim ki, 26.11.2022-cü il tarixində ***Əsasnaməyə*** düzəliş ediləcək və professor elmi adı elmi dərəcə alındığı sahədə veriləcək. O zaman dövlətimizin qanunları mənə zəmanət vermişdi ki, fəlsəfə elmləri doktoru olaraq institutumuzun əsas istiqamətlərindən biri olan sosiologiya elm sahəsində monoqrafiya dərc etsəm mənə həmin sahədə professor elmi adı veriləcək və mən buna şübhə etmədən elmi fəaliyyət göstərmişəm. Çünki dövlət öz qanunlarının arxasında durur və onları vətəndaşların ziyanına döndərməz. Buna görə 26.11.2022-cü il tarixli düzəliş, mənim elmi işimi pozduğuna və mənə ziyan vurduğuna görə mənim işimə aid edilməməlidir. Onun geriyə qüvvəsi ola bilməz, çünki monoqrafiya 2020-ci ildə dərc edilib.

**2 nəfər mütəxəssisin hazırlanması tələbi:**

2020-ci ilə monoqrafiyanı dərc edəndən sonra dərhal professorluğa iddia qaldırmaq mümkün deyil idi, çünki ***Əsasnamənin*** 3.1.5.1. bəndinə görə professor elmi adı almaq üçün iddiaçının elmi rəhbərliyi ilə azı **iki mütəxəssis** elmi dərəcə almalıdır (Qoşma 9). Bunu isə qısa müddət ərzində etmək olmur, çünki mütəxəssisin hazırlanması üçün ***"Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydalarının"*** 1.7. bəndinə görə **4 il vaxt tələb olunur** (Qoşma 10). Bu müddət yenə də ona dəlalət edir ki, 2022-ci ilin sonunda Əsasnaməyə edilən *düzəliş mənim işimə aid oluna bilməz*, çünki mütəxəssislərin hazırlığı illər tələb edir və hazırlıq prosesi bu tarixdən öncə başlayıb.

**Professorluğa iddianın gecikdirilməsi səbəbi:**

Buna baxmayaraq mən, Əsasnaməyə 2022 ilin sonunda edilmiş düzəlişin qəbul olunmasından öncə iddia qaldırmalı idim. Ancaq AAK-ın təqsiri üzündən bunu edə bilmədim. Məsələ burasındadır ki, elmi rəhbərliyimlə müdafiə etmiş birinci mütəxəssisə AAK tərəfindən 2018-ci ildə elmi dərəcə verilmişdir (Qoşma 11). İkinci mütəxəssis isə 17.12.2021-ci ildə dissertasiyasını müdafiə etməsinə baxmayaraq (Qoşma 12), təsdiqini bir ildən sonra 16.12.2022-ci il tarixində almışdır (Qoşma 13 və Qoşma 11). Lakin ***"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamənin"*** 6.7. və 6.8. bəndlərinə görə ən gec 6 aydan sonra (17.10.2022-ci ildə) almalı idi (Qoşma 14). AAK tərəfindən bu qayda pozulduğuna görə mən, ***Əsasnaməyə*** edilən düzəlişdən qabaq

17.10.2022 – 26.11.2022 tarixləri arasında professorluğa iddia qaldıra bilmədim. Beləliklə, gecikməyə görə AAK, **Azərbaycan Respublikası Konstitusiyanın** 68.III və 68.IV bəndinə uyğun olaraq məsuliyyət daşıyır, onun qaydaları pozması üzündən mənim professorluğum üçün Vəsatət vaxtında qaldırılmayıb (Qoşma 15) və elmi fəaliyyətimə ziyan vurulub.

**Nəticə:**

AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurası professor elmi adını almaq üçün Vəsatəti, mənim 2009-cu ildə fəlsəfə elmləri doktoru elmi dərəcəsi aldığımdan sonra 2010−2022-ci illər ərzində həyata keçirdiyim elmi işlərin əsasında qaldırmışdır. Çünki elmi fəaliyyəti qısa zaman ərzində həyata keçirilib nailiyyətlər əldə etmək, eləcə də qaydalar üzrə 2 nəfər elmi ad almış mütəxəssis (fəlsəfə doktoru) yetişdirmək mümkün deyil, buna illər tələb olunur. Buna görə AAK-ın qeyd etdiyi ***Əsasnamənin*** 1.3. bəndinə 27.04.2022-ci il tarixində edilən düzəliş geri tarixlərə deyil, qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilməlidir. Eləcə də **Azərbaycan Respublikasının Konstitusiyasının** 149, VII bəndinə görə həmin düzəliş, illərlə gördüyüm elmi işlərin və əldə etdiyim nailiyyətlərin əsasında elmi ad almağımı əngəllədiyinə və bununla da mənim uzun müddət gördüyüm qurucu elmi işlərimi pozduğuna görə onun geriyə qüvvəsi ola bilməz (Qoşma 16). Həmçinin, mənim rəhbərliyimlə müdafiə etmiş mütəxəssisin təsdiqi AAK-ın təqsiri üçündən gecikdirildiyinə görə professor elmi anının alınması üçün Vəsatəti vaxtında (17.10.2022 – 26.11.2022 tarixləri arasında) qaldırmaq mümkün olmamışdır. Bunun da məsuliyyətini AAK daşıyır.

**Beləliklə hesab edirəm ki, AAK:**

1. Qanunu geriyə tətbiq edərək AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi Şurası tərəfindən mənim Sosiologiya elm sahəsi üzrə professor adının alınması üçün qaldırdığı Vəsatəti icra etməməsi ilə Konstitusiyada təsbit olunmuş vətəndaş hüquqlarımı pozmuşdur;

2. Rəhbərliyimlə müdafiə etmiş mütəxəssisin təsdiqini gecikdirərək 26.11.2022 il tarixində edilən düzəlişdən qabaq professorluğa iddia etməyimi imkansız etmiş və bununla mənim elmi fəaliyyətimə ziyan vurmuşdur.

**Məhkəməyə müraciət etməyimin əsasları:**

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2.1-ci maddəsinə əsasən şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara inzibati məhkəmə icraatı qaydasında baxılır.

Həmin Məcəllənin 32.1-ci maddəsinə əsasən mübahisələndirmə haqqında iddia vasitəsi ilə iddiaçı inzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini məhkəmədən tələb edə bilər.

Qeyd olunanları nəzərə alaraq, **XAHİŞ EDİRƏM:**

AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurasının 07.02.2023 il tarixli 1№-li qərarı ilə mənim Sosiologiya elm sahəsi üzrə professor elmi adını almağım üçün Vəsatətinin icra etməkdən imtinaya dair cavabdehin qəbul etdiyi inzibati aktının ləğv edilməsinə və bu Vəsatətin icra edilməsinə dair cavabdehin üzərinə öhdəliyin qoyulmasına dair qərar qəbul edilsin.

**Qoşmalar:**

1. AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurasının 07.02.2023 il tarixli AAK qarşısında qaldırdığı Vəsatətin surəti;
2. AAK-ın Aydın Əlizadəyə 27 aprel 2023-cü il tarixli imtina məktubunun surəti;
3. 11.06.2019-cu il tarixli "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamənin" 1.3. bəndinə 26.11.2023-cü ildə edilmiş düzəlişin mətni;
4. Professor elmi adına iddia etmə prosesinin başlanğıc nöqtəsinin elmlər doktoru elmi adının alınması tarixi olması haqqında "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamənin" 3.1.2., 3.1.3., 3.1.4. və 3.1.5.1.bəndləri;
5. Aydın Əlizadənin 2009-cu il tarixli elmlər doktoru diplomunun surəti;
6. Aydın Əlizadənin AMEA Fəlsəfə və Sosiologiya institutunun "Sosiologiya" şöbəsinin baş elmi işçisi vəzifəsində işləməsinə dəlalət edən Əmək kitabçasının surəti;
7. Tədqiqatçının elmi maraqlarına və müəssisənin əsas istiqamətinə uyğun olaraq sərbəst tədqiqat istiqaməti seçmək hüququna malik olması haqqında Azərbaycan Respublikası Elm Qanununun 31.1.15. bəndi;

8. AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurasının Aydın Əlizadənin monoqrafiyasının çapa tövsiyə edilməsi haqqında qərarı;

9. Professor elmi adı almaq üçün iddiaçının elmi rəhbərliyi ilə azı iki mütəxəssisin elmi dərəcə almasının şərt olması haqqında “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamənin” 3.1.5.1. bəndi;

10. Mütəxəssisin hazırlanması üçün 4 il vaxt tələb olunması haqqında “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydalarının” 1.7. bəndi;

11. Aydın Əlizadənin elmi rəhbərliyi ilə hazırlanmış 2 nəfər mütəxəssisin hazırlanması haqqında AMEA Fələsəfə və Sosiologiya institutu tərəfindən verilən arayış;

12. Aydın Əlizadənin elmi rəhbərliyi ilə hazırlanmış ikinci mütəxəssisin 17.12.2021-ci ildə dissertasiyası müdafiə etməsinə dəlalət edən avtoreferat;

13. Aydın Əlizadənin elmi rəhbərliyi ilə hazırlanmış ikinci mütəxəssisin 16.12.2022 il tarixli fəlsəfə doktoru diplomu;

14. “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnaməyə” görə fəlsəfə doktorunun elmi işinin 3, ən gec 6 ay ərzində təsdiq edilməsi haqqında 6.7. və 6.8. bəndləri;

15. Qanunla təyin edilmiş qaydaların pozulmasına görə dövlət idarələrinin məsuliyyət daşıması haqqında Azərbaycan Respublikasının Konstitusiyasının 68.III və 68.IV bəndləri;

16. Qanunun geriyə qüvvəsinin olmaması haqqında Azərbaycan Respublikası Konstitusiyasının 149, VII bəndi;

17. İddia ərizəsinin surəti;

18. Aydın Əlizadənin Şəxsiyyət vəsiqəsinin surəti.

AZƏRBAYCAN
MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA
İNSTİTUTU

1143 Bakı, Hüseyn Cavid prospekti, 115
Tel: (99412) 537 11 39
E-mail: direktor@phill.science.az

AZERBAIJAN
NATIONAL ACADEMY OF SCIENCES
INSTITUTE OF PHILOSOPHY AND
SOCIOLOGY

1143 Baku, Husseyn Javid av., 115
Phone: (99412) 537 11 39
E-mail: direktor@phill.science.az

№ 8-1/10/2-47/2023 «10» mart 2023-cü il

Qoşma 1

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor Famil Mustafayevə**

**Vəsatət**

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu Elmi Şurası 7 fevral 2023-cü il tarixli iclasının 1 saylı qərarı əsasında fəlsəfə elmləri doktoru Aydın Arif oğlu Əlizadənin elmi fəaliyyətə görə sosiologiya elm sahəsinin 6312.01 «Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi» - ixtisası üzrə professor elmi adının verilməsi üçün vəsatət qaldırır.

**Qoşma:** İddiaçının “Elmi ad verilməsinə dair Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin siyahısı” ilə nəzərdə tutulan sənədləri.

**Fəlsəfə İnstitutunun direktoru:** **f.e.d., prof. İ.R.MƏMMƏDZADƏ**

1

Qoşma 2

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI**

AZ 1001, Bakı şəhəri
İstiqlaliyyət küçəsi 8

tel: +994 12 492-76-46, Faks: +994 12 437-24-54
e-mail: info@aak.gov.az

"27" aprel 2023 il

№3-50/2-Ə-422-4/202

**Bakı şəhəri, Y. İbrahimli küçəsi 7,**
**mənzil 7 ünvanında yaşayan**
**Aydın Əlizadəyə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına ünvanladığınız 14.04.2023-cü il tarixli müraciətinizə aidiyyəti üzrə baxılmışdır.

Təkrar olaraq bildiririk ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin 1.3-cü bəndinə müvafiq olaraq professor elmi adı elmi və elmi-pedaqoji fəaliyyətə görə, elmi dərəcəsi olan iddiaçılara elmi dərəcənin verildiyi elm sahəsində verilir.

Nəzərinizə çatdırırıq ki, sizə bu barədə Komissiyanın 03.04.2023-cü il tarixli 3-50/2-Ə-313-4/2023/61 nömrəli və 25.04.2023-cü il tarixli 3-50/2-Ə-371-4/2023 məktubları göndərilmişdir.

**Aparat rəhbəri** Tağızadə **Gülarə Tağı-zadə**

Qoşma 3

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyev**

Foto ▷

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

SƏNƏDLƏR FƏRMANLAR

**"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

26 noyabr 2022, 16:24

2.1. 1.3-cü bəndə birinci halda "iddiaçılara" sözündən sonra "elmi dərəcənin verildiyi elm sahəsində" sözləri əlavə edilsin;

Qoşma 4

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyev**

Foto ▷ Video RU E

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

SƏNƏDLƏR FƏRMANLAR

**Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə**

11 iyun 2019, 21:15

3.1.2. iddiaçı elmlər doktoru elmi dərəcəsi aldıqdan sonra azı bir il bu vəzifədə qüsursuz və müvəffəqiyyətlə işləməlidir;

3.1.3. iddiaçı elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə monoqrafiya (elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi şurasının qərarı ilə çapa tövsiyə edilməli və həcmi dörd yüz min işarədən az olmamalı) nəşr etdirməlidir;

3.1.4. iddiaçının elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc edilmiş (o cümlədən azı biri – xaricdə) məruzə və tezislərinin sayı azı üç olmalıdır;

3.1.5.1. elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə azı beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı iki, dəqiq və təbiət elmləri üzrə azı üç elmi məqalə təqdim etməli və iddiaçının elmi rəhbərliyi və ya elmi məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı iki mütəxəssis elmi dərəcə almalıdır;



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

*29 iyun 2009-cu il tarixli (protokol № 12 - R)*
*qərarı ilə*

*Aydın Arif oğlu Əli-zadəyə*

*fəlsəfə elmləri*

**DOKTORU**

*alimlik dərəcəsi vermişdir*

Ali Attestasiya
Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının
Baş Elmi Katibi

Qoşma 5



Qoşma 6

ИШ ҺАГГЫНДА МӘ'ЛУМАТ ИТ-I № 0229890

| Гејдин №-си | Тарих: күн | ај | ил | Ишә көтүрүлмәси, бир ишдән ишдән азад едилмәси вә ганунун маддәсинә, башга ишә кечирилмәси вә (сәбәбләри көстәрмәклә бәндинә әсасланмагла) | Гејд нәјин әсасында јазылмышдыр (сәнәд, онун тарихи вә нөмрәси) |
|---|---|---|---|---|---|
| 1 | 2 | | | 3 | 4 |
| 30 | 14 | 09 | 2016 | AMEA Fəlsəfə və Hüquq institutu adı dəyişdirilərək „Fəlsəfə" institutu adlandırılsın | Əmr № 185 14.09.2016 |
| 31 | 27 | 05 | 2017 | Yeni strukturaya əsasən „Multikulturalizm və tolerantlıq fəlsəfəsi" şöbəsinə baş elmi işçi vəzifəsinə keçirilsin | Əmr № 162 27.05.2017 |
| 32 | 22 | 10 | 2018 | Öz ştat vahidi ilə „Sosiologiya" şöbəsinə keçirilsin | Əmr 250 22.10.2018 |

– Hal-hazırda „Sosiologiya" şöbəsində baş elmi işçi vəzifəsində çalışır.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU • NATIONAL ACADEMY OF SCIENCE INSTITUTE OF PHILOSOPHY AND SOCIOLOGY • KADRLAR ŞÖBƏSİ

«ƏSLİ İLƏ DÜZDÜR»
AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU
KADRLAR ŞÖBƏSİNİN MÜDİRİ
«05» 06 2023

14

Qoşma 7

# Elm haqqında Azərbaycan Respublikasının Qanunu

Maddə 31. Elmi işçilərin hüquqları

31.1.15. işlədiyi elmi müəssisə və təşkilatın tədqiqat istiqamətləri çərçivəsində və özünün elmi maraqlarına uyğun olaraq sərbəst tədqiqat istiqaməti və metodu seçmək;

Qoşma 8

**AMEA-nın Fəlsəfə İnstitutunun**
**Elmi Şurasının**
**12 iyun 2020-ci il tarixli iclasının**
**3 saylı protokolundan**

**ÇIXARIŞ**

**Eşidildi:** "Sosiologiya" şöbəsinin baş elmi işçisi, f.e.d. A.A.Əlizadənin "Azərbaycanın qazlaşdırılması və qaz təsərrüfatının istismarı (1955-1970). Tarixi-sosioloji aspekt" adlı monoqrafiyasının müzakirəsi.

**Qərara alındı:** 1. "Sosiologiya" şöbəsinin baş elmi işçisi, f.e.d. A.A.Əlizadənin "Azərbaycanın qazlaşdırılması və qaz təsərrüfatının istismarı (1955-1970). Tarixi-sosioloji aspekt" adlı monoqrafiyası çapa məsləhət görülsün.

2. Elmi redaktor sos.e.d., prof. Həsənov Rəfail Musa oğlu təsdiq edilsin.

**Elmi katib:** **S.A.HƏSƏNOVA**

ELMİ KATİB

35

Qoşma 9

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Foto ▷ V

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

SƏNƏDLƏR FƏRMANLAR

## Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə

11 iyun 2019, 21:15

3.1.5.1. elmlər doktoru dissertasiyasının müdafiəsindən sonra müvafiq ixtisas üzrə azı beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilmiş humanitar və ictimai elmlər üzrə azı iki, dəqiq və təbiət elmləri üzrə azı üç elmi məqalə təqdim etməli və iddiaçının elmi rəhbərliyi və ya elmi məsləhətçiliyi ilə ixtisas üzrə təkbaşına hazırladığı azı iki mütəxəssis elmi dərəcə almalıdır;

Qoşma 10

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 1 iyul tarixli, 129 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Doktoranturaların yaradılması və doktoranturaya qəbul**

**Q A Y D A L A R I**

**1. ÜMUMİ MÜDDƏALAR**

1.7. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

**İddiaçı tərəfindən hazırlanmış mütəxessislərin**

**Siyahısı**

*AMEA Fəlsəfə və Sosiologiya institutu* təsdiq edir ki, baş elmi işçi, fəlsəfə üzrə elmlər doktoru, dosent *Aydın Arif oğlu Əlizadənin* rəhbərliyi ilə ixtisas üzrə təkbaşına elmi dərəcə almış *2* fəlsəfə üzrə fəlsəfə doktoru hazırlanmışdır:

| *Adlar* | *Elm sahəsi, ixtisas* | *AAK qərarının tarixi və nömrəsi* |
|---|---|---|
| 1. Piri Fərhad oğlu Axundov | Fəlsəfə, 7214.01-Dinin tarixi və fəlsəfəsi | 08. 06. 2018, FD№ 11430 |
| 2. Üzeyir Ələmdar oğlu Zeynalov | Fəlsəfə, 7207.01-Sosial fəlsəfə | 16. 12. 2022, FD № 12686 |

Elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin rəhbəri — f.ü.e.d. İlham Məmmədzadə

Elmi (elmi-texniki) şuranın katibi — f.ü.f.d. Sevinc Həsənova

Qoşma11

47

Qoşma 12



17.12.2021
saat 11[00]

AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

**YENİ DÜNYA NİZAMININ FORMALAŞMASINDA SİVİLİZASİYALARARASI DİALOQUN ROLU: SOSİAL-FƏLSƏFİ TƏHLİL**

| | |
|---|---|
| İxtisas: | 7207.01– Sosial fəlsəfə |
| Elm sahəsi: | Fəlsəfə |
| İddiaçı: | **Üzeyir Ələmşah oğlu Zeynalov** |

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

ELMİ KATİB

**Bakı – 2021**

53



Qoşma 13

FƏLSƏFƏ DOKTORU DİPLOMU
ELMİ DƏRƏCƏ HAQQINDA
DÖVLƏT SƏNƏDİDİR

FD № 12686

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
16.12.2022-ci il TARİXLİ
QƏRARI İLƏ
Üzeyir Ələmşah oğlu Zeynalova
(adı, atasının adı, soyadı)
7207.01 - Sosial fəlsəfə İXTİSASINDA
(ixtisasın şifri və adı)
fəlsəfə ELM SAHƏSİ ÜZRƏ
(elm sahəsinin adı)

FƏLSƏFƏ DOKTORU
ELMİ DƏRƏCƏSİ VERİLMİŞDİR

SƏDR: (imza) Famil Mustafayev (adı, soyadı)
BAŞ ELMİ KATİB (imza) Gülarə Tağı-zadə (adı, soyadı)



Qoşma 14

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

SƏNƏDLƏR FƏRMANLAR

**Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə**

11 iyun 2019, 21:12

6.7. Komissiyada fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi üçün təqdim olunan dissertasiyaya və sənədlərə daxil olduğu gündən üç ay, elmlər doktoru elmi dərəcəsinin verilməsi üçün təqdim olunan dissertasiyaya və sənədlərə isə daxil olduğu gündən beş ay müddətində baxılır.

6.8. Dissertasiya və sənədlərin ekspertizasının keçirilməsi üçün əlavə müddət tələb olunduğu hallarda Komissiya, səbəbini əsaslandıraraq, bu müddəti üç aya qədər artıra bilər.

6.9. Elmi dərəcə almaq üçün təqdim edilən sənədlərə baxılma müddətinə ilin iyul və avqust ayları daxil deyildir.

Qoşma 15

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Foto Video RU EN

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

AZƏRBAYCAN KONSTİTUSİYA

**Maddə 68. Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ**

III. Hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.

Qoşma 16

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Foto Video

XƏBƏRLƏR SƏNƏDLƏR AZƏRBAYCAN PREZİDENT I VİTSE-PREZİDENT ADMİNİSTRASİYA MÜRACİƏTLƏR Axtarış

AZƏRBAYCAN KONSTİTUSİYA

VII. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

**AMEA Fəlsəfə və Sosiologiya institutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru, dosent** **Aydın Arif oğlu Əlizadə**

08.05.2023